onların Allah-Təalanın dərgahında daim diri olduqları, ölümsüzlük mərtəbəsinə yüksəldikləri müjdə verilir. O şəhidlər ki, onlar Vətən torpağının bağrına səpilən şərəf və ləyaqət toxumlarıdır. O şəhidlər ki, onlar zirvələrə ucalan bayrağımızı möhkəm saxlayan, bayrağımızı bu torpaqlara pərçimləyən əbədiyyət köklərimizdir. Biz bu həqiqətləri gördüyümüz, anladığımız kimi, bunu gələcək nəsillərə də hər bir vasitə ilə ötürməyə çalışmalıyıq.

QAF

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 3048/492



Vətən uğrunda şəhid olanlar heç vaxt unudulmamalıdır. Onların xatirələri həmişə əziz tutulmalı, adları əbədiləşdirilməli, məzarları xalqın ziyarətgahına, and yerinə çevrilməlidir.

---

Bu buklet Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi "Zəfər yolunda 44 gün vətən müharibəsində qələbəmizin təbliği" layihəsi çərçivəsində "Könüllülük Fəaliyyətinin Təbliği" gənclər ictimai birliyi tərəfindən "Nurlar" nəşriyyatında 1000 ədəd çap edilmişdir.

Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

Könüllülük Fəaliyyətinin Təbliği
Gənclər İctimai Birliyi



# ZƏFƏR YOLUNDA 44 GÜN

2022

# ZƏFƏR TARİXİMİZ

Azərbaycan müstəqil bir dövlət olaraq tarixin ağır sınaqlarından çıxmış bir ölkədir. Müxtəlif dövrlərdə müstəmləkəçiliyə, işğala, soyqırıma və s. faciələrə məruz qalmışdır. Çoxsaylı itkilərimiz olmuş, torpaqlarımız işğal altında qalmışdır. Sözsüz ki, bütün hallarda xalqımız öz qəhrəmanlığını, vətənə, millətə və bayrağa olan sədaqətini sübut etmişdir. Bunun bariz nümunəsi kimi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı "Dəmir yumruq" əməliyyatı nəticəsində 44 gündən sonra Azərbaycanın böyük tarixi Zəfərə imza atmasını göstərmək olar. Şanlı Azərbaycan Ordusunun gücünü və qüdrətini görən Ermənistan məğlubiyyət sənədinə imza atmağa məcbur qaldı və Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Bu gün hər birimiz fəxarətlə söylədiyimiz, qürurlandığımız həmin tarixi qələbəni bizlərə bəxş



63.3(5Azə)622,8
Z 46




edən Ali Baş Komandana, şəhidlərimizə, qazilərimizə, hərbçilərimizə borclu və minnətdarıq. İllər ötsə belə bizlərə 44 günlük vətən müharibəsində qələbə sevincini yaşadan şanlı Azərbaycan Ordusunun əsgər və zabitlərini, sağlamlığını itirən qazilərimizi, ruhları qarşısında baş əydiyimiz şəhidlərimizi heç vaxt unutmamalı, xatirələrini əbədiləşdirməliyik.

44 gün ərzində tarixin elə bir kəsiyini yaşadıq ki, o anları həyatda olduğumuz müddətdə unutmaq mümkün deyil. Ali Baş Komandanımız Prezident İlham Əliyevin nitqi, duruşu və əsaslı sübutları ilə xarici ve yerli telekanallara müxtəlif dillərdə verdiyi müsahibələr, həyata keçirdiyi döyüş planı, müjdə dolu bəyanatlar və zəfər yüklü mesajlarla yaşatdığı sevinci və haqlı qüruru unuda bilərikmi? Yalın əllə sıldırım qayalara dırmanan, çiynindəki yaralı dostunu yarı yolda qoymadan mübarizəyə davam edən, minalı ərazilərdən gözünü qırpmadan irəli hücuma keçən, döyüş yoldaşlarını qorumaq üçün özünü fəda edən qəhrəman əsgərlərimizi və onlarla eyni səngəri bölüşən zabitlərimizi unuda bilərikmi? Yaxud təqaüdündən yığdığı bir miqdar pulun hamısını ordu üçün yardım fonduna köçürən ağsaqqalları, cib xərcliyi üçün verilən pulları ordu üçün yardıma yollayan məktəbliləri, əsgərə məktub yazaraq ən azından onlara mənəvi dəstək verən, ruh yüksəkliyi yaradan balacaları unuda bilərikmi? Könüllü cəbhəyə yollanan yaşlı qaziləri, yardım səfərbərliyi başladaraq



qida-ərzaq və isti paltardan tutmuş səngərlərin qorunması üçün təkərə qədər hər cür ehtiyac ləvazimatlarını yığan və cəbhəyə aparan gəncləri, evində bişən kotletləri çörək arasına qoyaraq cəbhəyə gedən maşınlara verən ağbirçək anaları unuda bilərikmi? Şəhid olmaq arzusu ilə yarışan, bir-birindən əvvəl döyüşə girmək üçün can atan və son nəfəsində gülümsəyərək "mənim gördüyümü siz görmürsünüz" deyən nurlu şəhidlərimizi unuda bilərikmi? O şəhidlər ki, müqəddəs Qurani-Kərimdə